Səh. 2 İctimai xədim – Azər Musaoğlu

Səh. 3 Uşaqlığımdan bir yarpaq – Afiq Muxtaroğlu

Səh. 5 Bir gəncin həyatı üzərindəki mübahisələr – Aytən Fətullayeva

Səh. 6 Bakı xatirələri: İfritəyə dönən qadınlar– Esmira ələkbərli

Səh. 2 Məscid uçurmadan da məktəb tikmək olar – Hacı Bəkiroğlu

Səh. 4 STATUSU DAYANDIRILMIŞ, LƏĞV EDİLMİŞ ŞAGİRDLƏRİN SAYINA GÖRƏ KVEMO KARTLİ İKİNCİ YERDƏDİR

Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2025-Cİ İL
№ 07 (224)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## AZƏRBAYCAN-TÜRKİYƏ-GÜRCÜSTAN ÜÇTƏRƏFLİ PARLAMENT FORMATI YARADILACAQ



Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ilə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili arasında görüş olub. Bu barədə Gürcüstan parlamentinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, görüş Daşkənddə davam edən Parlamentlərarası İttifaqın 150-ci Assambleyası çərçivəsində baş tutub. Numan Kurtulmuş Şalva Papuaşvilini yenidən parlamentin sədri seçilməsi münasibətilə təbrik edib. Qeyd edib ki, xalqın iradəsi ucadır, hər kəs seçkilərin nəticələrinə hörmətlə yanaşmalıdır və bu da gələcək inkişafın əsasına çevrilməlidir. Gürcüstan və Türkiyəni çoxillik səmərəli əməkdaşlıq və xalqlar arasında dostluq birləşdirir.

Görüşdə parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivləri də müzakirə olunub. Tərəflər yaxın vaxtlarda sədrlər səviyyəsində Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli əməkdaşlıq formatının yaradılması ilə bağlı razılığa gəliblər.

Dünyada və regionda baş verən proseslər, çağırışlar da diqqət mərkəzində olub.

Ş.Papuaşvili türkiyəli həmkarına Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkür edib.

Tərəflər Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi barədə razılığa gəliblər.

## KOBAXİDZE ƏRDOĞANLA BİR SIRA MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. Bu barədə Gürcüstan hökuməti məlumat yayıb.

Məlumata əsasən, Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın yüksək səviyyəsindən və müxtəlif sahələrdə uğurlu əməkdaşlıqdan danışılıb.

İ.Kobaxidze qonaqpərvərliyinə görə Türkiyə Prezidentinə təşəkkür edib və forumun liderlər arasında müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi üçün mühüm platformaya çevrildiyini vurğulayıb.

Tərəflər həmçinin Birgə İqtisadi Komitənin işinin bərpasının vacibliyini müzakirə ediblər və yaxın vaxtlarda növbəti iclası keçirməyə hazır olduqlarını qeyd ediblər. Türkiyənin Gürcüstanın ən böyük ticarət tərəfdaşı olduğu bildirilib və 2025-ci ildə ikitərəfli ticarət dövriyyəsinin 5 milyard dollara çatacağına ümid edildiyi vurğulanıb.

Görüşdə Yaxın Şərqdə baş verən hadisələr və Cənubi Qafqazda sülh və sabitliyin xüsusi əhəmiyyəti müzakirə olunub. İ.Kobaxidze Gürcüstanın regionda etimadın və davamlı sülhün bərpasını təmin edəcək dialoqu təşviq etməyə hazır olduğunu təsdiqləyib.

Həmçinin Türkiyədə keçiriləcək Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli formatının əhəmiyyəti müzakirə olunub.

Görüşün sonunda İrakli Kobaxidze Rəcəb Tayyib Ərdoğanı Gürcüstana rəsmi səfərə dəvət edib.

## XARİCDƏN QRANTLARIN ALINMASI QAYDALARI SƏRTLƏŞDİRİLİR



Gürcüstan parlamenti "Qrant haqqında" qanuna dəyişikliklər edəcək. Bununla bağlı yeni layihə hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının parlamentdəki fraksiyası tərəfindən təqdim olunub.

Yeni layihə parlamentdə sürətləndirilmiş qaydada, yaxın vaxtlarda qəbul ediləcək. Yeni dəyişikliklərə əsasən, qeyri-hökumət təşkilatı və media qurumu xaricdən qrant almaq üçün hökumətin və ya hökumət tərəfindən müəyyən edilmiş səlahiyyətli şəxsin razılığını almalıdır. Razılıq olmadan verilmiş qrantın qəbulu qadağan olunacaq və məsuliyyətə səbəb olacaq.

Layihəyə əsasən, hökumətin qrantın verilməsi ilə bağlı razılıq bildirməsi üçün 10 günlük müddət müəyyən edilir. Hökumətin qərarının məhkəməyə verilməsi həmin qərarın icrasını dayandırmayacaq.

Qadağan olunmuş qrantların verilməsi və qəbul edilməsinə nəzarəti Antikorrupsiya Bürosu həyata keçirəcək. Qadağan olunmuş qrantın qəbul edilməsi qrant alan şəxsin həmin qrantın ikiqat məbləğində cərimələnməsinə səbəb olacaq.

Qanun layihəsində müəyyən istisnalar da nəzərdə tutulub. Belə ki, hökumətin icazəsinin məcburi olduğu qayda beynəlxalq idman assosiasiyaları, federasiyaları və komitələri tərəfindən verilən qrantlara, Gürcüstan hüdudlarından kənarda orta və ali təhsil almaq və elmi fəaliyyət üçün verilən fərdi təqaüdlərə, eləcə də Gürcüstanda fəaliyyət göstərən beynəlxalq təşkilat tərəfindən verilən qrantlara şamil olunmur.

## GÜRCÜSTAN DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNƏ YENİ RƏHBƏR TƏYİN EDİLİB




Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) yeni rəhbər təyin olunub.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze aprelin 5-də DTX-nin yeni rəhbəri Anri Oxanaşvilini kollektivə təqdim edib.

Hökumət başçısı bildirib ki, A.Oxanaşvili bu vəzifənin öhdəsindən layiqincə gələcək. Baş nazir həmçinin Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbərinin yeni müavinləri – İrakli Beraia, Qela Qeladze və Levan Xaranauliyə də uğurlar arzulayıb.

Qeyd edək ki, Gürcüstan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Qriqol Liluaşvili istefa verib. Onu əvəz edən Anri Oxanaşvili Gürcüstanın ədliyyə naziri vəzifəsində işləyirdi.



# İCTİMAİ XƏDİM

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Ay başınıza dönüm, bu ictimai xadim kimdir, nəçidir, nə iş görür, nə yeyir, nə içir, nə çəkir?.. Bizim buralarda daş atırsan mütləq gedib ictimai xadimə dəyir. Küçədə, bazarda, marketdə, supermarketdə, hipermarketdə, nəqliyyatda, parkda, teatrda, kinoteatrda, toyda, yas yerində, çayxanada, meyxanada, bir sözlə, hər yerdə ictimai xadimlə toqquşursan. Hətta ictimai olmayan yerlərdə də qarşına ictimai xadim çıxır.

Tələbəsindən müəlliminə, tineycerindən pensionerinə, fiziki şəxsindən hüquqi şəxsinə – hamı ictimai xadimdir. Soruşan, xəbər alan da yoxdur ki, bəs bu qədər ictimai xadimin ictimai fəaliyyəti nədən ibarətdir, nə iş görür, nə yeyir, nə içir, nə çəkir? Bu qədər ictimai xadimin niyə hələ də normal bir ictimai birliyi yoxdur? Niyə bu qədər ictimai xadimdən heç olmasa bir-ikisi hələ də ictimai rəyə təsir edə bilmir? Bu qədər ictimai xadim varsa, niyə ortada ictimai iş yoxdur? Niyə bu qədər ictimai xadimi olan ictimaiyyət hələ də icma ola bilmir?

Mən ictimai birlikdən, ictimai rəydən dəm vururam, amma bu qədər ictimai xadimin heç normal ictimai nəqliyyatı yoxdur. Bu qədər ictimai xadimin yığışdığı çayxanalarda, parklarda və digər ictimai yerlərdə heç normal ictimai tualeti belə yoxdur...

Amma danışanda özünü ictimai xadim elan etmişlərin ağızlarına çullu dovşan sığmır, ictimaiyyətin adından çıxış edirlər, ictimai əhəmiyyətdən danışırlar, iki sözlərindən biri “ictimai” olur. İş görməyə gələndə isə ictima ola bilmirlər. Məsələ pul olanda, qazanc olanda hər şey dönüb fərdi olur. Bu ictimai xadimlər üçün bir işdə mənfəət yoxdursa ictimai, varsa xüsusi olur.

Bizim bu ictimai xadimlərin əlindən ictimai yerlərə – tədbirlərə, sərgilərə, tamaşalara, konsertlərə, görüşlərə, konfranslara, təqdimatlara və s. çıxmaq olmur. Tədbirdən, sərgidən, tamaşadan, konsertdən, görüşdən, konfransdan, təqdimatdan və sairdən istifadə edərək başlayırlar jestlər və mimikalarla pafosla ictimaiyyətin dərdinə ağlamağa, özlərindən başqa hamını qınamağa, günahkar axtarmağa.

Özlərinin ictimai xadim statuslarını qoruyub saxlamaq üçün bu ictimai xadimlər yuxarıda sadaladığım ictimai yerlərdə mütləq iştirak etməyə, görsənməyə, şəkil çəkdirib feysbukda paylaşmağa çalışırlar. Yəni mövzusundan, məzmunundan, formatından, başlama və bitmə saatından və sairindən asılı olmayaraq bütün tədbirlərin mütləq iştirakçısına çevrilirlər. Sən ictimai xadimi tanımaya bilərsən, amma bu ictimai xadim mütləq hamını tanıyır, hamı ilə salam-kalamı var.

Görünür, indi ictimai xadim statusu qazanmaq üçün ictimai fəaliyyətlə cəmiyyətdə tanınmağa, müəyyən nüfuz sahibi olmağa, təhsilə, çıxış və davranışlarla ictimai rəyə təsir edə bilməyə ehtiyac yoxdur. İndi ictimai xadim olmaq üçün eynək taxıb, klassik kostyum-şalvar və qara ayaqqabı geyinib bütün tədbirlərdə, sərgilərdə, tamaşalarda, konsertlərdə, görüşlərdə, konfranslarda, təqdimatlarda və sair yerlərdə iştirak etmək bəs edir, fərqi yoxdur, bu, kişiyə də, qadına da aiddir. İctimai xadimin erkəyi, dişisi olmaz yəni...

İndi siz deyin, ictimai fəaliyyəti olmayan, cəmiyyətə heç bir fayda verməyən; tədbirlərdə, sərgilərdə, tamaşalarda, konsertlərdə, görüşlərdə, konfranslarda, təqdimatlarda və sair yerlərdə iştirak etməyinin heç bir nəticəsi olmayan ictimai xadimdir, yoxsa ictimai xədim?..

# MƏSCİD UÇURMADAN DA MƏKTƏB TİKMƏK OLAR



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Son zamanlarda bəzi şəxslərin məscidlərə qarşı olan münasibətlərinə, bir də, iş adamı olaraq adlandırılan və özünün heç bir savadı olmayan şəxsin “İmkanım olsaydı, məscidləri sökdürüb yerində məktəb tikdirərdim” sözləri ilə gündəmə gələn və başqa bir müsahibəsində də özünü çoban kimi təsvir edib, əlinin altında bir çox alimi çalışdırdığını deyən bu şəxsin görüntülərini izlədikdən sonra bu yazı ilə öz fikirlərimi ifadə etmək istədim. Düzdür, məscidlərin sökülməsi və onların yerinə məktəb tikilməsi ilə bağlı fikirləri cəmiyyətdə geniş müzakirələrə səbəb oldu. Bu fikirlərə əhəmiyyət verməyənlərin sayı az olsa da, bu ipin ucunu tutub ağzına gücü yetməyərək artıq-əskik danışanlar da oldu.

Mənə görə, belə bir yanaşmanın tam əksinə olaraq, məscidlərin cəmiyyətimizdəki əhəmiyyətini və onların təhsil və mədəniyyət mərkəzi kimi rolunu vurğulamaq vacibdir.

Məscidlər islam mədəniyyətinin ayrılmaz bir hissəsidir. Onlar yalnız ibadət yeri olmaqla qalmır, eyni zamanda təhsil və mədəniyyətin inkişafında da mühüm rol oynayır. Məscidlərdə dini biliklərlə yanaşı, elmi və mədəni biliklər də öyrədilir. Bu, insanların həm dini, həm də elmi sahədə inkişafına şərait yaradır.

Din və təhsil bir-birinə zidd deyil, əksinə, islam dini elmə və biliyə böyük önəm verir. Quranın ilk ayəsi “oxu” olaraq nazil olmuşdur, bu da islamın təhsilə verdiyi əhəmiyyəti göstərir. Tarix boyu müsəlman alimləri elm sahəsində çox önəmli töhfələr vermişlər. Məsələn, Xarəzmi və digər müsəlman alimlər müxtəlif sahələrdə, o cümlədən riyaziyyat, astronomiya və tibb sahəsində əhəmiyyətli irəliləyişlərə imza atmışlar.

Məscidlərin təhsil funksiyası cəmiyyətimizin daha da müasir və maarifləndirilmiş olmasına xidmət edir. Məscidlər müxtəlif yaş qruplarından olan insanlara açıqdır və onların elmə marağını artırmaq üçün bir platforma təmin edir. Məscidlərdə keçirilən dərslər və təlimlər, insanların zəkasını inkişaf etdirmək və onlara həyatın müxtəlif sahələrində yön vermək baxımından əhəmiyyətlidir.

Məscidlərin təhsil və mədəniyyət mərkəzi kimi rolu onların cəmiyyətimizin inkişafında və insanların daha yaxşı bir gələcək qurmasında necə vacib olduğunu göstərir. Məscidlər həm dini, həm də elmi biliklərin öyrənilməsi üçün bir vəsilədir və bu, cəmiyyətimizin daha da inkişafına töhfə verir. Beləliklə, məscidlərimizin əhəmiyyətini anlamaq və onların cəmiyyətimizdəki rolunu dərk etmək həm dini, həm də elmi sahədə inkişafımız üçün əvəzsizdir.

Demək ki, məktəb inşa etdirmək üçün məscidlərin mövcudluğu bəhanə deyil. Məktəb inşa etdirmək istəyənlər məscidləri sökmədən də öz istəklərini reallaşdıra bilərlər.

Digər prizmadan mövzuya baxsaq, belə deyə bilərik ki, məscidlər insanın mənəvi yönünü inkişaf etdirir. Çünki mənəvi duyğusu olmayan bir həkim cəllad, bir polis rüşvətxor, bir məmur isə qaniçən olar ki, bu da cəmiyyətimizdə az görülmür.

Bir də, yuxarıda ifadə olunan fikri dəstəkləyənləri anlaya bilmirəm. Niyə xristianlar kilsə tikəndə, yəhudilər sinaqoq tikəndə və sair onlar çox xeyirxah insanlar olurlar, amma iş məscidə gələndə bu, lazımsız kimi düşünülür?



# UŞAQLIĞIMDAN BİR YARPAQ

Əgər doğru xatırlayıramsa adı Allahverdi idi. Alçaq boy, tösvər bir kişi olduğu yaxşı yadımdadır. Bir qədər böyük, girdə başının keçəlləşməyə, dazlaşmağa meyilli olması da ağlımdadır. Gözlərinin qırmızılığı adamın, əslində məni kimi kiçikyaşlı uşaqların canına qorxu da sala bilirdi. Qan çanağına dönmüş gözləriylə qarşısındakına nəzər yetirməsi Allahverdi kişinin qələbəsi üçün yetərli idi.

O, böyük qarğı səbətini vaqonun boş oturacaqlarından birinin üstünə qoyub, bu hərəkət edən, relslərin üstündə tak-tuk salaraq şütüyən məkanda kiçik bazar açırdı. Sərnişinlərin çoxu ağzı yaşmaqlı, başı şallı-çalmalı qadınlar olurdu. Səhərin alaqaranlığından şərin qulağı yaxana qədər "Dizertir", "Malakan", "Soldat", "Naftulluq" kimi bazarlarda bağ-bağçalarının məhsulunu dəyər-dəyməzinə satıb, oğul-uşaq üçün gözlərinə dəyəndən alıb çantalarına, kisələrinə dolduran qatarın qadın sərnişinləri uzun corablarının içində gizlətdikləri və ya şallarının, yaylıqlarının ucuna düyünlədikləri saxlanclarını Allahverdi kişinin gəlişi ilə yoxlayırdılar. Yazıqlar nə etməli idilər? Şəhərin-bazarın, dəmir yolu vağzalının, mindikləri qatarın cibgirləri gördükləri kimi də, götürürdülər. Dəli sözü, göz deşirdilər. Əksəriyyəti bazardan qayıdan sərnişinlər Allahverdi kişinin gəlişini gözləyirmişlər kimi, onu görüncə oturduqları yerdən şeşəlməyə başlayırdılar. Vaqondakı sakitlik bir anda ağız deyəni qulaq eşitməyəcək səs-küylə əvəzlənir, vaqonda qəribə bir canlanma yaranırdı.

Hər dəfə onu axşam qatarında görürdüm. Hər dəfə deyəndə də, birtəhər çıxır. Mənim qatara minməyim də çox olmurdu. Bu, nənəmlə şəhərə gedəndən gedənə olan bir iş idi. Səhər üzü Tiflisə getmək alaqaranlığa, seçər-seçməzə, mənim də alayuxulu olmama tən gəldiyindən o qədər də maraqlı olmurdu. Ancaq geri dönüşdə ətrafa doyunca baxa bilirdim. Uzaqdan görünən Yağlıcanın yəhərbel təpələrini, bir az bəridə uzanıb gedən Kürü, Tiflisin, Rustavinin göy üzünə tuşlanmış çoxmərtəbəli binalarını, Qaracaların, Təhlənin bir-birinə söykək evlərini, Çatmanın qaşında, yolun o üz, bu üzündə sıra ilə düzülmüş qəbir daşlarını görmək mənim uşaq dünyama sevinc qarışıq bir kədər yükləyirdi. Mindiyim elektrik qatarının yanından güllə kimi keçən yük qatarlarının, sərnişin qatarlarının şütüməsinə dördgözlə baxırdım. Bağımızdakı ağacların yerlərinə mıxlanıb qalmalarını təəssüflə yadıma salır, qatarın yanınca qaçdıqlarını düşündüyüm ağaclara heyranlıqla tamaşa edirdim. Bilmədiyim yerlərə üz tutan qatarların vaqonlarını saymaq istəyimsə hər dəfə suya düşürdü. Sürətlə şütüyən qatarların vaqonlarını saymaq mənə müyəssər olmurdu. Qatarların sürəti bu istəyimi gerçəkləşdirməmə heç cür imkan vermirdi. Qarşılaşan qatarların lokomotivlərinin tükürpədici siqnal səsləri məni bir qədər qorxutsa da, bu səslərin yaratdığı həyəcanın ləzzətini əlli ildən çox vaxt keçməsinə baxmayaraq, indi də bütün varlığımla hiss edirəm. Bir kənd uşağının yaşaya biləcəyi qorxu qarışıq o həyəcanı unutması adamın keçmişinə, yaşantılarına xəyanəti kimi başa düşülməlidir.



Çatmanın qaşındakı qəbiristanlıqda əbədi yuxuya getmişlərin kimliklərini – həyatda hansı dinə, hansı məzhəbə qulluq etdiklərini dərk etməyəcək yaşda olduğumu demişəm. Düzünə qalsa, mən dinin nə olduğunu bilmirdim. O da ola, xristianlıq, islam. Mən burada xristianlara, sünni-şiə məzhəb müsəlmanlara aid bir neçə qəbiristanlığın yanaşı mövcud olmasını çox sonralar biləcəkdim.

Daşlardan baxışlarını uzaq bir nöqtəyəmi, yoxsa hardasa üfüqdəki bir boşluğamı dikdiklərini kəsdirə bilmədiyim qəbiristanlıq əhlinin şəkillərindəki soyuq təbəssüm baxanları eyməndirirdi. Qatarın hərdən sürətini azaltmasından istifadə edərək, daşlardakı yazıları oxumağa çalışırdım. Tanış olmadığım yazıları oxuya bilməsəm də, o qəbirlərdə yatanların neçə il ömür sürdüklərini əlüstü hesablaya bilirdim. Gürcü əlifbasını bir neçə il sonra öyrənəcəkdim. Hesablama bacarığımsa, deyəsən, yaxşı idi. Həyatdan vaxtsız köçənlərə ürəkdən heyifsilənməyim, hətta kədərlənməyim də olurdu. Qatarın pəncərəsindən görünən yeni mənzərələr məni bürüyən kədəri yoxa çıxarır, həmin mənzərələr kədəri heyrətlə, təəccüblə əvəzləyirdi.

Allahverdi kişinin səbətindəki qatlamalar, kömbələr, bubliklər, saçaqlı uzun konfetlər, taxta qaletlər, manpasılar, adını bilmədiyim digər şirni-şəkərlər görənlərin ağızlarını sulandırır, həmin təamları xırtaxırt dişləmələrini, ağızlarının ləzzəti uzun müddət unudulmayacaq xoş bir dadla dolmasını təsəvvür etmələrinə səbəb olurdu. Analarının, nənələrinin yanınca şəhərə gedib-gələn uşaqlar səyyar satıcını görüncə üzlərində açılan sevinc çiçəklərini gizlətmək də istəmirdilər. Bilirdilər ki, nənələri, anaları almaq istəməsələr belə, bir-biriylə bəhsə girərək, onların ağızlarını şirinləməyə mütləq nəsə alacaqlar. Bazarı yaxşı olanların aldıqlarının çeşidi çox olurdu, satdığı məhsulu dəyər-dəyməzinə verənlər də vara-yoxa baxmayıb nəsə alırdılar. Təkcə vaqondakılara deyil, evdəki hürkütmədən saya bilmədikləri uşaqlarına da nəsə almalı olurdular. Allah baxırdı Allahverdi kişinin üzünə, bazarı od eləyirdi. Bəzən alveri elə yeyin olurdu ki, başqa vaqonlara keçməsinə ehtiyac da qalmırdı. Başına cormalaşan müştərilər onun səbətini bir göz qırpımında boşaldıb, səyyar satıcını ağır səbəti vaqon-vaqon gəzdirmək zəhmətindən xilas edirdilər. Bu da yəqin ki, hər deyən olmazdı. Olsa da ayda-ildə bir dəfə olardı.

Mənim şəhərə, yəni Tiflisə növbəti səfərlərimdən, daha doğrusu Tiflisdən geri dönüşlərimdən biri daha yaddaqalan oldu. O yadda qalmaq, bu yadda qalmaq, azından əlli ildir hərdən-hərdən oyanıb, mənə xoş duyğular yaşadan Tiflisdən həmin dönüşümdə baş verən hadisə yaddaşıma elə həkk olunub ki, onu oradan kiminsə çıxarması, silməsi də indən belə mümkün deyil.

Axşama doğru yorğun yolçularını Tiflisin səsli-küylü bazarlarından, iş yerlərindən rahatlanmaq, dincəlmək üçün evlərinə daşıyan elektrik qatarının sərnişinləri arasında nurani bir kişi ilə iki gəncin olmasına Allahverdi kişinin gəlişindən sonra vaqondakıların hamısı diqqət yetirməli oldu. Vaqonun narahat taxta oturacaqlarında yan-yana əyləşmiş bu üç nəfərin digər sərnişinlərdən fərqli olmalarını da Allahverdinin nurani kişini qucaqlayıb bağrına basmasından, duz kimi yalayıb öpməsindən sonra anladıq. Yoxsa kim idi onlara xüsusi diqqət yetirən. Yorğunluqdan, yuxusuzluqdan bədənlərinin hər əzası sızıldayan bu adamların kiməsə diqqət yetirməyə halları da qalmamışdı. Hətta çoxu mənzil başına çatana qədər mürgüləməyə fürsət də tapırdı.

Allahverdinin nurani kişiyə bu münasibəti vaqonda qəribə bir canlanma yaratmışdı. Hamının bundan sonra nə baş verəcəyini səbirsizliklə gözlədiyi hər halından bəlli idi. Allahverdinin onlara nə deyib, nə deməsini xatırlamıram, amma bir anın içində onların sehrbaz kimi haradansa çıxardıqları nurani kişinin əlindəki metal halqalarla bəzədilmiş qavalın, yanında oturan gənclərdən birinin sinəsindəki tarın, digərinin dizinin üstündəki kamançanın görünməsi vaqonda səssizliyin yaranmasına, başqa-başqa dillərdə danışan sərnişinlərin səslərini qısıb, gözlərini hər tərəfdən onlara dikməsinə səbəb oldu.

Mizrabın simlərə dəyməsiylə tarın haray qoparması, kamanənin toxunuşuyla kamançanın yanıqlı bir səslə inildəməsi, qavaldan qopan ritmik səs hamının diqqətini özünə kilidləmişdi. Hansı muğam parçasının ifa olunduğunu bilməsəm də, bu heyrətamiz mənzərə məni sehrləmişdi. Bu, mənim gördüyüm ilk canlı ifa idi. Nə qədər vaxt keçdiyindən xəbərim belə olmamışdı, sehrli bir aləmə düşdüyümü düşünürdüm. Vaqonda yaranmış bu abu-havaya nurani kişinin şirin zəngulələri başqa bir gözəllik qatır, onun pəsdən səsinin arada zilə qalxması hamını qanadlarında harasa aparırdı. Düşdüyüm bu sehrli aləmin qəfildən başa çatacağını, yenidən neft qoxusu verən vaqonda yol gedəcəyimi belə unutmuşdum. Məni düşdüyüm o sehirli aləmdən sərnişinlərin alqış sədalarının ayırdığını, özümü işıqlı bir məkandan qaranlıq quyuya düşmüş kimi hiss etdiyimi indi də xatırlayıram.

Musiqi üçlüyünün ifası bitər-bitməz Allahverdi kişinin səbətindəki al-əlvan şokoladları xışmalayaraq qoca xanəndənin başından aşağı yağdırması, həm də bunu göz yaşları içində etməsi mənim uşaq qəlbimdə dərin izlər buraxmışdı. Hələ bu harasıdır?! Etdikləri ilə ürəyi soyumayan səyyar satıcı, o zamanlar nadir hallarda görülən qırmızı bir onluğu xanəndənin döş cibinə basmaqla günə növbəti damğasını vurmuşdu.

**Afiq MUXTAROĞLU**

## BALETLƏ MƏŞĞUL OLDUĞUMA GÖRƏ MƏNİ MƏSXƏRƏYƏ QOYURDULAR



Mən oğlanam və balet studiyasına gedirəm. Bu dəhşətdir, çünki nə baleti sevirəm, nə də sinif yoldaşlarımın, qonşuların məni məsxərəyə qoymasına dözə bilirəm. Amma anam və nənəm heç nə başa düşmürlər – güclə mənə balet tamaşaları göstərirlər, baletin tarixini, müxtəlif baleronların hekayələrini danışırlar, inandırmağa çalışırlar ki, mən başa düşmürəm. Başa düşürəm, amma insanlardan qorxuram, mənə gülürlər, əslində bunu aşmalıyam. Ailə üzvlərimi isə inandıra bilmədim ki, məsxərə xoşuma gəlmir, baleti də həqiqətən sevmirəm. Həm də anam xəstədir, bunu yeni bilmişik və nənəm həmişə təkrar edir: “Yazıq ananın arzusunu həyata keçirməlisən, baletdən əl çəkməməlisən!”

Artıq bayıra çıxmaqdan iyrənirəm. Balet dərsləri axşam saat 7-də başa çatır. Qışda qaranlıq olanda asandır – həyətdən elə keçirəm, heç kim məni görmür. Yayda isə qaranlıq gec düşəndə həyətə girməyə utanıram. Məhəllə oğlanları söz atırlar; anamla, yaxud nənəmlə birlikdə olanda bu cəhənnəm yolunu keçib binaya girənə kimi hündürdən mənə gülürlər. Anam da, nənəm də bu gülüşləri eşidirlər, amma buna heç bir əhəmiyyət vermirlər. Məni də öyrədirlər ki, elə edim guya eşitmirəm. Bu isə mümkün deyil. Bilmirəm, onlarda necə alınır, məni isə hər söz elə ağrıdır, sanki mənə zərbə vururlar, hətta zərbədən də betər!

Ötən il dəhşətli hadisə baş verdi. Onda balaca idim, çox təsirləndim. İndi bir az böyümüşəm və xatırlamaq daha asandır. Qısası, tənəffüslərdən birində sinif yoldaşlarım yenə mənə gülməyə başladılar. Müəllim məni qoruyurdu, ancaq heç kim ona qulaq asmırdı. Müəllim həmişə sanki öz-özünə danışırdı. Çünki səsi aşağıdır və uşaqlar da dinləməyi sevmirlər. Müəllimdən ya qorxmalısan, ya da sevməlisən. Bizim müəllimi nə sevmirlər, nə də ondan qorxmurlar. Ona görə də, elə çıxır ki, həmişə öz-özünə danışır. Mən əvvəl dinləyirdim. İndi mən də dinləyə bilmirəm. Çünki həmişə eyni şeyi təkrar edir, yeni heç nə danışmır. Bu məsxərə zamanı mən də dözə bilmədim və sinif yoldaşlarımdan birini vurdum. Onun dostu isə kitabla dolu ağır çantanı mənim başıma çırpdı. Elə ağrıtdı ki, ağlamağa başladım. Məlum oldu ki, beyin sirkələnməsi keçirmişəm və bir neçə həftə evdə yatdım.

Həmin günlərdə baletə getmədiyimə görə sevinirdim, buna görə də heç sağalmaq istəmirdim. Həkimlər məktəbə qayıtmağıma icazə verəndə, elə bildim sinif yoldaşlarım məni peşman olmuş vəziyyətdə qarşılayacaqlar, amma bunun əksi baş verdi. Məni görən kimi gülməyə başladılar, necə ağladığımı yamsılayırdılar. Başıma çanta vurulduğunu, ağladığımı tamaşaya qoyub göstərirdilər. Mənə qızbibi deyirdilər.

İndi başqa məktəbdə oxuyuram. Burada baletə getdiyimi bilmirlər. Bilmirəm nə zamana kimi gizlədəcəyəm. Anamın sağlamlıq vəziyyəti isə daha da ağırlaşır. Nənəm həmişə ağlayır. Mənim isə yenə də baletdən zəhləm gedir. Amma studiyaya getməkdən əl çəkə bilmirəm, çünki anama yazığım gəlir.

***Müəlliflər: Maia Sarişvili, Aleks Çiqvinadze.***

***“Mənimlə dostluq et! Məktəbdə təkəm!” kitabından.***

***Kitab məktəb şagirdləri tərəfindən təqdim edilmiş real hekayələrə əsaslanır və İlia Ədalət İnstitutunun “Məktəbdə bullinqə qarşı sistem yaradılması üçün advokatlaşdırma/ “Mənimlə dostluq et! Məktəbdə təkəm!” layihəsi çərçivəsində hazırlanıb. Layihə “Açıq Cəmiyyət – Gürcüstan”ın maliyyə dəstəyi ilə həyata keçirilir.***

## STATUSU DAYANDIRILMIŞ, LƏĞV EDİLMİŞ ŞAGİRDLƏRİN SAYINA GÖRƏ KVEMO KARTLİ İKİNCİ YERDƏDİR



Gürcüstan Xalq Müdafiəçisinin 2024-cü ildə Gürcüstanda insan hüquqları və azadlıqlarının müdafiəsi ilə bağlı vəziyyətlə əlaqədar hazırlanmış, apreldə isə qanunvericilik orqanına göndərilmiş son hesabatına əsasən, 2024-cü ildə statusu dayandırılmış şagirdlərin sayı 11 minə çatıb.

Hesabatda bildirilir ki, ölkə miqyasında 2086 ictimai və 9 pansion xidməti olan 206 özəl məktəb fəaliyyət göstərir. 2024-2025-ci tədris ilinin göstəricilərinə görə, şagirdlərin ümumi sayı 640499 nəfər təşkil edir. 2024-cü ildə ümumilikdə 10800 şagir təhsilini dayandırıb ki, bu da 2023-cü ildə statusu dayandırılan şagirdlərin sayından 2601 dəfə azdır. Buradan 7599 şagirdin statusu dayandırılıb, 3201 şagirdin statusu isə ləğv olunub. 10800 şagirddən 1976-sı xarici ölkə vətəndaşıdır, 2 şagirdin isə heç bir vətəndaşlığı yoxdur.

***“Statistikaya əsasən, statusun dayandırılması əksər hallarda “ailə ilə birlikdə xaricə getmək”, “valideynin/qanuni nümayəndənin müraciəti”, “təhsili peşə kollecində davam etdirmək”, “davamlı şəkildə dərsə getməmək” halları ilə əlaqədardır. Bölgələrə görə 2024-cü ildə şagirdin statusunun dayandırılması, yaxud ləğv edilməsi ilə bağlı ən yüksək göstərici Tbilisidə (4170 şagird), Kvemo Kartlidə (1979 şagird) və Acarada (1273 şagird) qeydə alınıb”*** – hesabatda qeyd olunub.

**Şagirdin statusunun dayandırılması/ləğv edilməsinin əsas səbəbləri olaraq aşağıdakılar göstərilir:**

- Ailə ilə birlikdə xaricə getmək – 3900;
- Maliyyə borcu – 33;
- Qalmış vauçerlərin ödənməməsi – 6;
- Məktəbdən uzaqlaşdırılmaq – 30;
- İşğal edilmiş ərazilərdə təhsili davam etdirmək – 23;
- Dərsdə davamlı olaraq iştirak etməmək – 1427;
- Ailə qurmaq – 43;
- Ölüm halları – 62;
- Valideynin/şagirdin ərizəsi əsasında – 2595;
- Sağlamlıq vəziyyəti – 122;
- Səviyyəni aşmaqla uzaqlaşdırılmaq – 218;
- İşə başlamaq – 300;
- Təhsilini peşə kollecində davam etdirmək – 2041.

Sənəddə qeyd edilir ki, Xalq Müdafiəçisinin illərdir şagid statusunun dayandırılması/ləğv edilməsi üzrə vahid statistikanın tamamlanması, qaydaya salınmasının əhəmiyyətini qeyd etməsinə baxmayaraq, Təhsil, Elm və Gənclər Nazirliyinin məlumatına görə, statusun dayandırılması ilə bağlı müraciətlərin statistikasını qaydaya salmaq üçün yenidən işlər aparılır. Eləcə də qurumdaxili tənzimləmələrdə dəyişikliklər edilməsi, təcrübənin analiz edilməsi əsasında da işlər həyata keçirilir.

*Səhifədəki məlumatlar “edu.aris.ge” saytından götürülüb.*

***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# BİR GƏNCİN HƏYATI ÜZƏRİNDƏKİ MÜBAHİSƏLƏR



Yaxın günlərdə Tbilisidə baş verən bir hadisə sosial şəbəkələrdə böyük səs-küyə səbəb oldu. 21 yaşlı bir universitet tələbəsinin Kür çayına atılaraq intihar etdiyi iddia edilir. Hadisənin rəsmi təsdiqi və ya dəqiq nəticəsi hələ ortaya çıxmayıb – nə cəsədi tapılıb, nə də sağ olduğu sübut edilib. Ancaq hadisənin özündən daha çox ətrafında yaranan fikirlər, münasibətlər və cəmiyyətin bu hadisəyə verdiyi reaksiya düşündürücüdür.

Bəzi insanlar onu "qaçıb getmək üçün plan qurub, guya özünü öldürmüş kimi göstərib" deyə ittiham edirlər, digərləri isə onun həqiqətən də həyat yükünü daşıya bilmədiyini düşünürlər. Ancaq sosial şəbəkələrdə ən çox diqqət çəkən məsələ bu hadisənin qadın təhsilinə qarşı yönəlmiş hücumlarla əlaqələndirilməsidir. "Qız oxumamalıdır, oxuyarsa belə olur", "Ən yaxşısı ərə verməkdir", "Göz açmaz, az bilsə, az istəyər" kimi fikirlər cəmiyyətin bəzi təbəqələrində hələ də yaşadığını acı şəkildə göstərdi.

Bu faciəvi hadisəni sosial şəbəkələrdə sanki bir mübahisə mövzusuna çevirdilər. Lakin burada unudulan bir şey var. Bu, bir gəncin həyatı və əgər bu hadisə həqiqətən də intihar olsa, bu, bir insanın nə qədər böyük bir psixoloji yük daşıdığının göstəricisidir.

Hadisədən sonra yayılan paylaşmalar təkcə bir gənc qızın həyatı ətrafında dolaşan sualları deyil, həm də cəmiyyətin qadınlara, xüsusilə təhsil alan qadınlara qarşı olan gizli və açıq nifrətini üzə çıxartdı. Sosial mediada yayılan "Qız nədir, oxumaq nədir?", "Verirsən 14-15 yaşından ərə, əri çəkir dərdini", "Qız uşağı çox bilməməlidir, gözü açılmaz" kimi ifadələr təkcə bir düşüncə tərzinin məhsulu deyil – bu, yüz illərlə formalaşmış patriarxal sistemin səsinin müasir formatda səslənməsidir.

Bu yanaşmalar təkcə bir fərdin deyil, bütöv bir nəslin həyatını qaranlığa bürüyür. Qız uşağını "ər üçün", "ailə üçün" böyütmək anlayışı onu insan yox, bir əşya kimi dəyərləndirmək deməkdir. Təhsil isə bu cür düşüncələrə qarşı duran ən güclü silahdır. Məhz buna görə də bəzi dairələrdə təhsilli qadın qorxulu, təhlükəli və "gözüaçıq" sayılır, çünki o, artıq öz həyatının müəllifinə çevrilə bilər. Lakin bu gün belə fikirləri açıq şəkildə səsləndirənlərin sayı az deyil. Və bu cür münasibətlər təkcə bir şəxsin fikri yox, eyni zamanda bir cəmiyyətin tərbiyəsində, ailə modelində və təhsil sistemindəki boşluqların göstəricisidir.

Təhsil almaq hər bir gəncin haqqıdır – cinsindən asılı olmayaraq. Bu haqqın əlindən alınması, onun ruhunun da yavaş-yavaş susdurulması deməkdir. Təhsil insanın həyatını yaxşılaşdırmaq üçün, daha yaxşı seçimlər etməsi üçün vacibdir. Təhsil insanın həm özünü tapmasına, həm də cəmiyyətə faydalı olmasına imkan verir.

Əslində, qadınların təhsil alması yalnız onların həyatını yaxşılaşdırmaq deyil, eyni zamanda psixoloji sağlamlıqlarını qorumağa kömək edir. Təhsil bir insanın özünü tanımasına, duyğularını idarə etməsinə və həyatda qarşılaşdığı çətinliklərlə mübarizə aparmasına şərait yaradır. Təhsilli bir insan öz hüquqlarını və dəyərlərini daha yaxşı bilir və heç kim onun həyatı üzərində nəzarət qura bilmir. Bu, həm də qadınların özünə inamını artırır, çünki onlar artıq öz gələcəklərini formalaşdırmağa qadirdirlər.

Bunların hamısı qızların üzləşdiyi ailə və cəmiyyət basqılarına qarşı mübarizə etməyə kömək edir. Məsələn, təhsil almamış və ya az oxumuş bir qızın evdə və ya cəmiyyətdə qarşılaşdığı təzyiqlər onu daha həssas edir. Əgər bir gənc qız təhsilini tamamlayıb, öz həyatını qurmağa çalışırsa, bu, çox zaman ailə üzvləri tərəfindən pis qarşılanır. "Təhsil qadın üçün nə işə yarayır?" sualına cavab tapmaq əvəzinə, onlar onu ən yaxşısı evləndirmək, ailə qurmaq kimi ənənəvi rolda görmək istəyirlər.

Ancaq əslində, bu yanaşma qızları depressiyaya və stresə salan əsas səbəblərdən biridir. Təhsil insanın özünə inamını artırdığı kimi, psixoloji sağlamlığını da qoruyur. Təhsil almış bir qadın sadəcə özünü deyil, həm də ətrafındakılara təsir edə biləcək gücə sahib olur.

Bu cür situasiyalar artıq faciə olmaqla yanaşı, cəmiyyətin vicdanını da sarsıdır. İnsanlar hadisələri müzakirə edərkən empatiya ilə yanaşmağa başlamayana qədər belə faciələr daha çox olacaq. Bizim məsuliyyətimiz yalnız doğru məlumat yaymaqla bitmir. Eyni zamanda, başqalarının həyatına təsir edəcək sözləri, şərhləri və fikirləri paylaşarkən diqqətli olmalıyıq. Əgər biz heç vaxt empatiya etməsək bir gün özümüz də başqalarının şərhlərindən zərər görə bilərik. Cəmiyyət olaraq biz kimsə haqqında fikir yürütməzdən əvvəl, onların mövqeyini və yaşadıqları çətinlikləri başa düşməyə çalışmalıyıq. Çünki bu, heç də sadə bir mövzu deyil; burada bir insanın həyatı, ruh halı və gələcəyi var.

Təhsil bir insanın həyatını dəyişə bilər və bunu heç kim inkar edə bilməz. Qız uşağının təhsil alması yalnız onun gələcəyini deyil, cəmiyyətin gələcəyini də formalaşdırır. Bu yazıda nəzərə çatdırmağa çalışdığım odur ki, qadınların təhsili heç bir şəkildə ikinci dərəcəli bir məsələ olmamalıdır. Onlar da kişilər kimi öz hüquqlarına sahib olmalıdırlar, seçmək, qərar vermək və həyatlarını qurmaq haqqını tapmalıdırlar.

Bu faciə cəmiyyətin daha çox müzakirə etməli olduğu mövzulardan biridir. Biz nə vaxt qadınların hüquqlarını, onların öz həyatlarını idarə etmə azadlıqlarını, təhsil alaraq güclənmələrini ön plana çəkəcəyik? Biz nə vaxt bu cür stereotipləri aradan qaldırıb, qadınları yalnız ev işləri ilə məşğul olmağa məhkum etməyəcəyik?

Orda-burda yayılan yanlış məlumatlar və cəmiyyətdəki qərəzli düşüncələr bu kimi faciələrin qarşısını almaq üçün bizi daha çox düşünməyə vadar edir. Qadınlar yalnız həyatlarını deyil, toplumlarını da dəyişdirmək gücünə sahibdirlər. Onlara bu fürsəti verməliyik. Çünki onların təhsili bizim gələcəyimizdir. Necə ki, Hacı Zeynalabdin Tağıyev deyib: "Bir oğlana təhsil verməklə təhsilli bir adam qazanırsınız, bir qıza təhsil verməklə isə təhsilli bir ailə".

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# SƏSLİ KÜÇƏLƏRİN BİR ANLIQ SƏSSİZLİYİ



Bir yerdə oxumuşdum: "Hər küçənin yaddaşı var, bəzisi oyuncaqların, bəzisi isə susqun baxışların daşıyıcısıdır..."

Küçə deyildikdə ilk ağıla gələn asfalt, daş və torpaqdan ibarət yollar olur. Ancaq əslində elə deyil. Sevincimiz, kədərimiz, bir sözlə, bütün duyğularımız bu səssiz küçələrin şahidliyi ilə baş verir. Düzdür, küçələri bəzən uşaqların gülüş səsləri, insanların qəh-qəhəsi, satıcıların yorğun səsləri, avtomobillərin gurultusu bürüyür. Ancaq bu səsli küçələr bəziləri üçün böyük bir səssizliyə çevrilə bilir... Küçələr sadəcə yol deyil, onlar addımlarımızla yazılmış xatirələrdir; görünməz yazılarla dolu və lal olan bir yaddaşdır.

Bir dəfə qrup olaraq bir tədbirə qatıldıq. Bir neçə nəfər evə avtobusla qayıtdı. Biz – üç nəfər metroya qədər piyada getdik. Küçə hər zamankı kimi yenə səsli və insanlarla dolu idi. Nino (ad şərtidir) bir anlıq dayandı. Ona nə olduğunu soruşduqda bir müddət cavab vermədi. Sanki bütün həyatını gözləri qarşısında canlandırırdı. Sonra bir yerdə əyləşdik və dedi: "Sizə küçələrə aid, sevmədiyim, amma məcburən hər gün qulaq asdığım bir hekayə danışacağam".

Hekayə belə başlayırdı:

"Eka 12 yaşında olanda həyat sanki onun uşaq olduğunu unudub. Vaxtsız böyümək bəlkə də bu deməkdir. Hər bir uşağa ən çox sevgi, dəstək və diqqət lazım olduğu bir vaxtda o, həyatının ən acı günlərini yaşayacaqdı. Ata-anası bir qəzada dünyasını dəyişib. Eka nənəsinin himayəsində yaşayırdı. Lakin nənəsi nə onun, nə də öz ehtiyaclarını qarşılayacaq vəziyyətdə deyildi. Bu səbəbdən Eka hər gün qonşularından yemək üçün nə isə istəməyə məcbur olurdu. Hər səhər oyanıb yaşıdları kimi məktəbə getmək əvəzinə, utanaraq küçələrə çıxırdı. Küçənin hər bir küncünü adı kimi tanıyırdı. Hər gün insanların üzündə müxtəlif ifadələrə şahid olurdu: rəğbət, sevinc, kədər, yorğunluq, nifrət... Bəzən yolda ona kömək etmək istəyən şəxslərin verdiyi bir az pul, bəzən bir tikə çörək, bəzən isə əliboş evə qayıdırdı. Bir il bu cür keçdi. Amma o qorxduğu gün gəldi. Nənəsi də dünyasını dəyişdi. Sonra onu bir sığınacağa yerləşdirdilər. Ona yardım edəcəyini deyən çox adam oldu, lakin yalnız bir nəfər təhsilinə dəstək olub, sonadək yanında dayandı".

O an başa düşdük ki, hekayədəki Eka əslində bizim daim pozitiv, güclü gördüyümüz Nino imiş. Həmin küçələr onun acı xatirələrinin səssiz daşıyıcısı imiş. Bu gün o universitetdə oxuyur və çox savadlı bir gəncdir.

İnsan keçmişini unuda bilmir. Ona keçmişini xatırladan hər bir səsli küçə bəzən onun üçün səssizliyə çevrilə bilir. Bu gün yenə o səsli küçələrdən keçərkən Ninonu səssizlik bürüyür. Keçirdiyi günlər bir film kimi gözlərinin önündə canlanır...

Bəzən bir insanın gözlərinə baxdıqda nə yaşadığını, nə hisslər keçirdiyini başa düşmək olur. Ancaq o, həyatının bu çətin günlərini pozitivliyində, gülüşlərində elə gizlətmişdir ki, başa düşmək çətin idi.

Son olaraq demək istəyirəm ki, hər küçə sadəcə yol deyil. Bu küçələr bəzi insanların itirilmiş xatirəsi, bəzilərinin isə möcüzəsidir.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 1-ci kurs tələbəsi*



# BAKI XATİRƏLƏRİ: İFRİTƏYƏ DÖNƏN QADINLAR

Təbiətin də şəxsiyyəti təsdiq edən vəsiqələri var – ağacların illik həlqələri kimi, balıqların pulcuğundakı qatlar kimi, hətta qırmızı qan hüceyrələri belə dörd ay yaşasa da qocasıyla cavanı seçilir. İnsan övladı təbiətin qanunlarını poza-poza gedərkən bir yaşlanmaq sindromunu da xof şəklinə çevirdi.

Mən fərqli uşaq idim. Yaşıdlarımdan fərqli olaraq hərtərəfli idim. Ona görə də özümdən böyüklərin söhbətini dinləmək üçün onların süfrəsində oturmağa cəhd edirdim. Onların bəzi məsələlərdə səhv danışdığını düşünərək müdaxilə etmək istərkən həmişə deyirdilər: “Otur otduğun yerdə, sən uşaqsan”. O uşaq yaşımdan o qədər zəhləm gedirdi ki, böyümək üçün günləri sayırdım. Elə istəyirdim ki, yaşım ətrafımda hamıdan böyük olsun, məni ağbirçək kimi qəbul etsinlər, fikirlərimə dəyər versinlər. Axı haqlı olduğumu düşünürdüm.

Mən illəri sayarkən illər yaman gec gəlirdi. Nə qədər böyüsəm də özümdən böyüklərdən böyük ola bilmirdim. Elə bu gün də o arzudayam: sağlam şəkildə qocalmaq, ətrafım üçün sözün həqiqi mənasında yol göstərən, məsləhət verən, danəndə nənələrimiz kimi, bir kəlağayılı nənə olmaq istəyirəm. Bir anlıq təsəvvür yarada bildimsə indi sualıma cavab verin: varmı belə nənələr? Bax, elə mövzumun mustafası da budur.

Yaxın zamanda Bakıda bir xudmani yığıncaqda idik. Bir qohum evində nişanın kiçik forması olan bəlgə idi. Məclisdə çoxluğu 60-65 yaşlı qadınlar təşkil edəcəkdi demişdilər. Mən də Borçalıdan gedən qonaq qismində idim. Mənə xoş olan tərəfi ziyalıların olması idi. Maraqla getdim. Təəssüf ki, naxoş tərəfi də vardı. Yəqin ki, hamımız xalq dastanlarından gözəl qızların da, qadınların da, hələ dili bayatılı, əli xəmirli nənələrin də təsvirini xatırlayırsınız. Bu təsvir ömrün fəsillərini xatırladan bir seçimdir. Hər adama nəsib olmur ki, ömrün fəsillərini ardıcıl yaşasın...

Bəli, mən yığıncağa getdim.Təqdimatla xarici görünüş tərs mütənasib idi. Həm də çox tərs. Qadın, qız seçilmirdi – nə geyimdə, nə xarici gürünüşdə, nə sözündə-söhbətində. Əlbəttə, mən müasirliyin əleyhinə deyiləm. Bir var o görünüş sənə təbiətin töfvəsidir, bir də var sən onu təbii qanunları işğal etməklə qazanırsan. Mən təbii müdaxilələrin hamısını “təbiətə təcavüz” adlandırardım. Cəmiyyətə qara qüvvə kimi gələn, az qala həyat tərzinə daxil olan pəhriz-dieta son illər leksikonumuza daxil olub yazsam yumşaq alınar, lövbər salıb deyərdim.

Xeyli vaxtdır görmədiyim bu ziyalı xanımlar bir-birinin bəhsinə kilo atmaq yarışında olublar sanki. Mən ziyalı söhbətləri gözlədiyim halda onlar dietoloqlarından və pəhiz salatlarından danışırdılar. Mən onların çöhrələrinə baxdım. Yaşlanmağın nuru əvəzinə sifətlərində bir eqoizm vardı. Süfrədə hər nemət varkən bu pəhrizli xanımlar yalnız tərəvəz salatı və meyvə yedilər. Mənə elə gəlirdi ki, onların gözü acdır, sadəcə o pəhrizə məcburdurlar. Bir fizioloq kimi bilirdim ki, şüuraltı olaraq bu kabablar bizim genetikamızın tələbatıdır (Əlbəttə, qurbağalı plov və ya çəyirtkə qovurması olsa ona reaksiya yarana bilməz). Göz görür və instinktiv olaraq mədə şirəsi yaranır, sadəcə iradəyə qalib gəlməyə çalışırlar. Bu isə mütləq şəkildə sinir sistemində rezonans yaradır. İstəyirlər, amma məcbur imtina edirlər. Sinirlər gərilir və nəticədə aqressiya yaranır. Özləri hiss etmirdilər, amma xanımxatın olası yaşda çöhrələrinə bir qaranlıq çökmüşdür. Belə qaranlıq görünüşə nənələr “ifritə” deyərmişlər. Bunu mən nərə balığı kababını ləzzətlə yeyəndə hiss edirdim. Onların yaratdığı mənfi enerjidən uda da bilmirdim. Sonda mən də göyərtiyə keçdim.

Bəli, elə bilirsiniz belə aqressiya tək bu yığıncaqda idi? – Xeyr.

Arıqlamaq üçün pəhriz saxlayan hər kəsdə bu hiss var. Mən küçədə gedərkən belə o qadınların sifətinə baxanda o mənfi enerjini hiss edirdim və düşünürdüm ki, bunlar da həmin bəlalı qadınlardandırlar. Xəstəlik pəhrizi başqadır. Bunun psixoloji tərəfi var ki, sağlam olacam, ağrımayacam. Arıqlamaq pəhrizində isə daxili qüvvə ilə çarpışılır. Qalib olmaq üçün xərclədiyi sinir sifətində əks-səda verir.

Bax, beləcə yaşlandıqca üzdə nur əvəzinə ifritə görünüş yaranır. Bu nənələr əsla layla çala bilməz, nağıl danışa bilməz, bu nənələr müasirliyin qurbanı olub ifritəyə dönən qadınlardır. Onlar içindəki istəyin qisasını cəmiyyətdə hər şeydən çıxmaq istəyən nənələrdir. Beləcə nur camallı, xoş rəftarlı, dili bayatılı nənələr əvəzinə ətrafımızda ifritəyə dönən qadınların sayı artır.

Mənsə Tanrıdan sağlam canla qocalıq istəyirəm. O qocalığı ki, ağaran saçlarımla, həyat təcrübəsinin açdığı qırışlarla, elə öz yaşımı göstərən görünüşümlə; nəvə laylasıyla, el bayatılı, əli xəmirli nənə olmaq istəyərdim. Təki arzuma çatım, ətrafımdakılardan böyük olum, deməsinlər ki, sən bizdən uşaqsan. Sağlamlıq özü ən əvəzsiz gözəllikdir!!!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# UŞAQLARI MƏCBUR ETMƏK YOX, DƏSTƏKLƏMƏK LAZIMDIR



Hər bir valideyn və müəllim istəyir ki, uşaq yaxşı oxusun, hər şeyi bilsin və gələcəkdə uğurlu biri olsun. Amma bəzən uşaqlar bəzi dərsləri başa düşmürlər və ya həmin dərsləri sevmirlər.

Hər bir uşaq fərqlidir. Kimi riyaziyyatı sevir, kimi rəsm çəkməyi, kimi də musiqi ilə maraqlanır. Uşağın maraq dairəsini tapmaq və onu o istiqamətdə yönləndirmək daha doğrudur. Əgər bir uşaq bir fənni heç sevmirsə və ya nə qədər çalışsa da başa düşmürsə, onu məcbur etmək olmaz, bu, ona təzyiq kimi görünə bilər. Bu da həm uşağın psixologiyasına, həm də dərslərinə olan marağına mənfi təsir göstərə bilər.

Təsəvvür edin ki, siz musiqini çox sevirsiniz, amma sizi riyaziyyatı mütləq öyrənməyə məcbur edirlər. Əgər siz bu fənni sevmirsinizsə və sizə çətin gəlirsə, onda dərs sizin üçün maraqsız və yorucu olur. Amma musiqi fənnində həm həvəslə, həm də sevə-sevə öyrənirsiniz.

Əlbəttə, bu o demək deyil ki, şagirdlər yalnız sevdikləri fənləri öyrənməlidirlər. Əsas fənlər oxuma, yazma, riyaziyyat və s. təməl biliklərdir və hər kəs bu sahələrdə müəyyən qədər məlumatlı olmalıdır. Amma bu fənlər uşağa çətin gəlirsə, onu məcbur etmək yerinə sevdiyi fəndə ona dəstək olmaq lazımdır.

Bəzən valideynlər deyirlər: “Mən uşaq olanda bu qədər imkanım yox idi, indi səndə hər şey var, oxumalısan!” Bu sözlər bəlkə doğrudur, amma uşağın ruh halını nəzərə almadan deyilsə onu incitmiş ola bilər. Çünki uşaqlar robot deyil, hissləri olan balaca insanlardır. Onların da yorulduğu, bezdiyi və dəstəyə ehtiyacı olduğu anlar var.

Digər tərəfdən, uşağın sevdiyi fənn varsa, məsələn, rəsm, musiqi, idman və s. biz o sahədə onu daha da dəstəkləməliyik. Çünki insan sevdiyi işi görəndə həm daha uğurlu olur, həm də xoşbəxt. Ola bilər ki, bir uşaq gələcəkdə məşhur bir rəssam, musiqiçi və ya idmançı olsun. Amma biz onu yalnız riyaziyyata və ya başqa sevmədiyi fənlərə məcbur etsək, o öz istedadını göstərə bilməz və itirər.

Müasir dövrdə bir çox uğurlu insanlar məhz sevdikləri işlə məşğul olaraq zirvəyə qalxıblar. Kiminsə kod yazmağa həvəsi var, kiminsə isə xəyal qurub hekayələr yazmağa. Biz uşaqların içindəki bu alovu söndürmək əvəzinə onu gücləndirməliyik. Uşaq özünü hansı sahədə tapırsa orada dəstəklənməlidir.

Müəllimlər və valideynlər bir yerdə çalışıb uşağın maraqlarını kəşf etməli və ona uyğun təhsil verməlidirlər. Hər fənni eyni dərəcədə mükəmməl bilmək mümkün deyil. Uşaq hər fəndə əla ola bilməz. Amma sevdiyi sahədə çox böyük uğurlar qazana bilər. Bəzən uşaq riyaziyyatda zəif ola bilər, amma çox gözəl geyim dizaynları edə bilər. Niyə onu geyim üzrə dizayn kursuna yazdırmayaq? Yaxud texnologiyaya marağı olan uşağa bu sahədə inkişaf etməsi üçün imkan yaratmayaq? Unutmayaq ki, gələcəyin peşələri artıq fərqlidir, bəlkə indi “seçmədiyimiz” maraqlar sabahın ən gəlirli sahəsi olacaq...

Nəticə olaraq deyə bilərik ki, uşaqları sevmədiyi fənlərə məcbur etmək yerinə onlara bu fənləri maraqlı yollarla öyrətmək daha doğrudur. Amma əsas olan odur ki, uşaq özü nə istədiyini bilsin və biz onun yanında olaraq ona dəstək olaq. Sevdiyi fənni inkişaf etdirmək isə onun gələcəyini daha da parlaq edə bilər.

**Fatimə İbadova**
*Qardabani 3 nömrəli ictimai məktəbin 10-cu sinif şagirdi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

## ALEKSANDRE ORBELİANİ

*(əvvəli ötən sayda)*

Cənab David Rusiyadan gələndə nəsə qəribə xasiyyətlər mənimsədi. Bazar ertəsi axşamı kiməsə xəlvəti məlumat verdi, bəlkə də qəsdən idi, o da xəyanət etsin; Ona kimi, sən demə, dayısı Revaz Andronikaşvilinin xəyanətini gizlədirlərmiş. Sizin dayınız çar İrakliyə xəyanət etdi və bununla yanaşı keçmişdə eşitdiyimizi hamıya demək lazımdır, – deyirdilər. Daha düşünmədi, daha ürəyi də istəmədi və yerindən hirsli atıldı. O, döyüşçülərinə qoşulub yüksək səslə qışqırdı: “Mənim yazıq babam, çar İrakliyə hamı xəyanət etdi; Biz burada tək nə edə bilərik?”

O, qəzəblənmiş halda dörd topu dərəyə atdırdı, özü Mtsğneti yolu ilə getdi və Kaxetiyə tərəf yollandı: Çox hirsləndiyindən səsi titrəyirdi, danışığı çətinliklə başa düşülürdü. Şahzadə Georgi (Davidin atası) onun Kaxetiyə keçdiyini eşidəndə dərhal yanına çağırtdırdı, amma getdiyinə görə çoxlu pis söz dedi. Xeyli vaxt keçdi onu görə bilmədi, görsə də nadir hallarda, az bir müddətə görürdü. Bundan sonra elə nifrət edirdi ki, Davidin yanında atasının adını çəkməyə bəzən çətinliklə cəsarət edirdilər. Şahzadə Georgi (sonralar çar oldu) günahkar deyildi, o, xəstə və böyük Tanrı sevdalısı idi. Səbəbkar kimlər idi, vaxt çoxdur.

Qızılbaşların qoşunu dağa çıxanda buradan sürətlə bəri çəkildilər və yüksəkliklərdə topların üstünə çıxdılar. Yuxarıda dediyim kimi, duman çəkiləndə, topları görən kimi dərhal gəlib Krtsanisi bağlarına çıxdılar, oradan yaxşı axtarış apardılar, gördülər ki, topların qoşunu yoxdur – böyük tərəddüddən sonra hücuma keçmək üçün gələn topsuz topçulardan başqa.

Şəhərin qalan camaatı təəccübləndi: İmerelilər bizə xəyanət etdi. Bu zaman toplar işə düşdü, nə düşdü. Bunun səsi fəlakət xəbərini şəhər əhalisinə çatdırdı və hamı fəlakət barədə həyəcan təbilinə qərq oldu.

Topların rəisi mayor tavad Georgi Quramişvili (Çar İrakli tərəfindən xaç suyuna çəkilmişdi) elə bir ehtiyac içində oldu ki, əcəlin gəlməsini istəyirdi. Bu anda o, hündürdən hamıya qışqırdı: “Qardaş gürcülər, əcəlimizin yetdiyini aydınca görürük, lakin namussuz şəkildə qızılbaşlara tabe də ola bilərik. Hansını istəyirsiniz: Vətən uğrunda və yaxşı çar uğrunda şərəfli ölümü, yoxsa namussuz həyatı?

Hamı bir ağızdan dedi: “Bizim ata-babalarımız namussuzluq etməyib və biz də onların övladlarıyıq. Namussuz həyatdan ölüm bizim üçün daha üstündür”.

– “Təşəkkürlər, qardaşlar, sizin kişiliyiniz nə rəva görürsə, məhz elə ürəyiniz vardır. Amma gəlin üç barmaqla hamımız yerdən bir çimdik torpaq götürək, yeyək, bu, müqəddəs sirrin əvəzi olsun. Sonra şərəflə cənnətə gedək”.

Hamı üç barmağı ilə yerdən torpaq götürdü və Tanrını yad edərək yedi: İlahi, bizə rəhm et.

Qızılbaşlar hücuma hazırlaşarkən qurulmuş toplar onları pərən-pərən elədi, ara vermədən topların sapandlarını onların üzərinə yağdırdılar. Bu zaman çar İrakli öz gürcüləri ilə Soğanlığın daracaqlarına yollanırdı. Topların gurultusunu eşidəndə daha da tələsdilər və bacardıqları qədər bəri gəldilər. Topların sapandı qızılbaşları ora-bura səpələdi. Bu zaman baxdılar, gördülər ki, gürcülər daracaqlarda üzü bəri gəlirlər və elə bil ildırım çaxdı, qəti olaraq dedilər: “Əgər o gürcülər topların yanına özlərini yetirsələr, şəksiz, işimizi korlayacaqlar. Nə olur olsun hücuma keçməliyik”. Bu zaman hücuma keçdilər, topların üzərinə dörd tərəfdən atları yeritdilər. Bu vaxt ora-bura bir dəfə də atəş açdılar, amma yenə də içəri varıb qılınc oynatdılar. Əgər topların yanında, o möhkəm yerlərdə tüfəngli qoşunları olsaydı, tüfəng gülləri ilə Qızılbaş ordusuna zərər verə bilərdilər. Bu zaman topları doldurmağa nail olardılar və qızılbaşları bir daha içəri buraxmazdılar. Bu ərəfədə çar İrakli də öz ordusu ilə köməyə gəlirdi və gürcülərin işləri həll olunacaqdı. Lakin qızılbaşlar yaxşıca ayırd etdilər, son vaxtlar topçular arasına qətiyyətlə qarışdılar və elə həmin an gürcülər dərhal qılınclarını götürüb hərəsi bir qızılbaşı yerə sərdi, lakin sonda kimlərsə qaldısa, bəli, az, bir təhər, təsadüfən onları da qırdılar. Həmin mayor Quramişvili isə igid kimi dayandı və qılıncı ilə üç qızılbaşı yerə sərdi və dördüncünü şil-küt etdi, elə həmi an çevrilib bu sözlərlə topa sarıldı: “İlahi, çar İraklini bu dəhşətin içindən əmin-amanlıqla çıxart və Vətənin balasına mən çarə olum”.



Dəliləşmiş qızılbaşlar ölümdən qorxmayan, yurdsevər, İrakliyə sədaqətli, öz borcunu yerinə yetirən, ardıcıllığı qoruyan, namuslu və ruhən böyük xeyirxah olan Quramişvilini topun üzərində doğram-doğram etdilər. Çar İrakli və onun ordusu topların səsini daha eşidə bilməyəndə, təsdiq etdilər: Toplar çıxarılıb, əks halda onların səsi kəsilməyəcəkdi. Bunun üzərinə onlar hamısı and içdilər: Ya namusla canımızı qurtaraq, ya da namusla birlikdə ölək. Bu vəziyyətdə onlar irəli gəldilər.

Qızılbaşlar topları məhv edəndə qaçıb gizlənən xan dərhal yolu bilən, öz qulluqçusunun başçılığı ilə min qızılbaşı Sololaka doğru göndərdi və bu ordu geri şəhərə doğru qərb tərəfə qayıtdı. Məhz elə bu vaxt çar İrakli öz gürcüləri ilə Kürün körpüsündən Avlabara keçdi, lakin min nəfər qızılbaş göndərildikdən sonra görüblər ki, gürcülər də Soğanlıq daracaqlıqlarına girirlər və əvvəllər onlardan qorxmuşdular, çünki elə bilirdilər ki, əvvəlki günlərdəki döyüşlərdə olduğu qədər qoşun olacaq. Bundan yenə çox qorxdular, özlərinin Qızılbaş qoşunu onların arxasınca getmədi, ona görə də onlardan xeylisi çəkinərək qaçıb yoxuşa çıxdılar, gürcülər onlardan uzaqlaşaraq qara yolu keçib Seyidabad bağlarının çəpərlərinə doğru getdilər, əks halda bu dörd min qızılbaş öndə qarşıya çıxsaydı yarıya enmiş və bu qədər cəfalardan yorulmuş, haldan düşmüş gürcülər onların əlləri ilə məhv olacaqdılar. Ad naminə və namus naminə, bu belə olsaydı, çox yaxşı olardı!.. Bu da çar İraklinin bədbəxtliyidir.

Ağa Məhəmməd şah Qacar qoşunları ilə Soğanlıq kəndinə gələndə ətrafı yenə çox duman bürüdü ki, onlara orada dayanmağı əmr etdi, yenə daracıqlara getməyə cəsarət etmədi, gürcülər elə qorxmuşdular. Bu səbəbdən özünün adamları ilə Kür çayını keçib Naftulluğa tərəf yönəldi və bu zaman duman da çəkildi, həmin vaxtlar Kür də az daşmışdı. Bu cür təsadüfləri belə düşünürük: Guya Tanrı tərəfindən hazırlanan bədbəxtlikdir – İrakli üçün bədbəxtlik. Haradan ki, Ağa Məhəmməd şah Qacar Soğanlığın daracıqlarında və dərələrində axtarışa başladı: Çar İraklini qoşunu gizlətmir ki? – Diqqətlə araşdırdı, gördü ki, çar İraklinin artıq qoşunu heç yerdə yoxdur, belə ki, o, öz ordusu ilə dar yollarla hərəkət edirdi və bu zaman Ağa Məhəmməd şah Qacar şəhərin girişində topların səsini eşitdi, oradan çığırdı: Tez arxasıyca düşün. Özü də cəld Kürə doğru getdi, lakin o yola atılmış daş-kəsək xeyli müddət ordunu saxladı; Onları, o tərəf-bu tərəfə atana kimi çar İrakli daracıqlardan keçdi. Burada Ağa Məhəmməd şah Qacar tərəddüd etmədən kimin bədöy atları var idisə onlardan istifadə edib sapand daşı kimi qoşunun arxasıyca saldı və özü də yavaşca onların arxasıyca getdi.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 APREL
2025-Cİ İL
№ 07 (224)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2024-CÜ İLDƏ GÜRCÜSTANDA 427 YENİYETMƏNİN HAMİLƏLİYİ QEYDƏ ALINIB



2024-cü ildə 427 nəfər yeniyetmənin hamiləliyi, 365 nəfər yeniyetmənin isə valideyn olması qeydə alınıb. Xalq Müdafiəçisinin 2024-cü ildə yayımladığı hesabatında qeyd olunub ki, ötən il evlilik səbəbindən 43 şagirdin (38 qız və 5 oğlan) statusu dayandırılıb və ya ləğv olunub.

Ancaq qeyd etmək lazımdır ki, statistika göstəriciləri real vəziyyəti əks etdiyməyə bilər. Çünki təhsili dayandırmanın əsasları səhv qeyd oluna bilər. Xüsusilə "valideynin ərizəsi" əsasında şagirdin təhsilini dayandırması məsələsi problemlidir. Bunun arxasında bəzi hallarda məhz evlənmək, ailə qurmaq durur.

Gürcüstanın Ombudsman Aparatının araşdırdığı uşaq evliliyi/nişanlanma hallarına görə, yenidən Gürcüstanın Daxili İşlər Nazirliyi, təhsil müəssisələri, Qayğı göstərmə Agentliyi arasında davamlı işləmək, mövcud müdafiə, yardım mexanizmlərinin effektiv istifadə problemləri qeyd olunur.

Baxmayaraq ki, məsuliyyətli qurumlardan yalnız Agentlik "Sosial işçilər üçün uşaq və erkən yaşda evlilik hallarının idarəedilməsi haqqında" praktiki dərslik sənədini təsdiq edib, araşdırılmış fərdi işlərdən yenə sosial işçilər tərəfindən qeyri-effektiv reaksiya qeydə alınır. Həmçinin etnik azlıq icmasına qarşı stereotiplərlə dolu yanaşma mövcuddur. Eləcə də uşaq yaşlarında mümkün evlilik faktları ilə bağlı inzibati işə başlamaq problemdir.

Gürcüstanın Daxili İşlər Nazirliyində yetkinlik yaşına çatmamış şəxslə evlənmək motivində törədilmiş 184 mümkün cinayətlə bağlı istintaq başlayıb və 74 həbs orderi verilib. Prokurorluğun məlumatlarına görə, yetkinlik yaşına çatmamış şəxslə evlənmək motivində törədilmiş cinayətlərdə 50 uşaq zərərçəkmiş hesab olunub, 45 nəfərə qarşı isə cinayət təqibi başladılıb.

*Mənbə: etaloni.ge*

## PARLAMENTDƏ YENİ MÜXALİFƏT BLOKU YARADILIR



Gürcüstan parlamentinin deputatları İlia İncia, Varlam Liparteliani və Nika Elisaşvili parlament çoxluğunu tərk ediblər. Bu barədə parlamentdə keçirilən brifinqdə deputat İlia İncia məlumat verib. O bildirib ki, onlar Gürcüstan parlamentində "Avropa Sosialistləri" əsasında müxalifət parlament siyasi qrupu yaradırlar. Varlam Liparteliani və Nika Elisaşvili də parlamentdə İlia İncia ilə birlikdə müxalifət partiyası kimi fəaliyyətlərini davam etdirəcəklər.

İlia İncianın sözlərinə görə, kollegiallıq prinsipinə tam riayət olunub və qərarla bağlı əksəriyyət məlumatlandırılıb: "Üç müxalifət birliyinin təmsilçilərinin mandatlarına xitam verildi. Hesab edirəm ki, bu vəziyyət Gürcüstanda yeni siyasi mədəniyyətin formalaşması üçün yeni imkanlar yaradır".

Onun sözlərinə görə, "Avropa Sosialistləri"nin radikal müxalifətə münasibəti bu günə qədər olduğu kimi prinsipial olaraq qalacaq. Yeni siyasi qrup öz missiyasını sağlam müxalifət funksiyasını yerinə yetirməkdə görür. Bu da hökumətin və parlament çoxluğunun fəaliyyətinə effektiv nəzarəti həyata keçirməyə, qanunvericilik təşəbbüslərini Gürcüstanın daha yaxşı əsaslarla müzakirəsinə və gələcək üçün böyük nümayəndə heyətinin müzakirəsinə cəlb etməyə imkan verəcək: "Əminəm ki, fəaliyyətimiz ölkənin inkişafına yönəlmiş siyasi sistemlərin qurulmasında mühüm rol oynayacaq".

## 37 ÖLKƏ GÜRCÜSTANLA BAĞLI BİRGƏ BƏYANAT QƏBUL EDİB




37 ölkə Gürcüstanda insan haqlarının vəziyyətinin pisləşməsi ilə bağlı dərin narahatlıqla ATƏT-ə müraciət edib. Bu barədə Almaniyanın ATƏT-dəki səfiri açıqlama verib.

Bəyanatda bildirilib ki, Gürcüstan demokratiya və insan haqları sahəsində öhdəliklərindən uzaqlaşmaqda davam edir.

Sənəddə Gürcüstanda qəbul edilmiş "Xarici agentlər" haqqında qanun tənqid olunub, dinc nümayişçilərin və jurnalistlərin saxlanılmasından narahatlıq ifadə edilib.

ATƏT ölkələri Gürcüstanda bütün siyasi partiyaların, vətəndaş cəmiyyəti və beynəlxalq institutların iştirakı ilə inklüziv dialoqun zəruriliyini vurğulayıblar.

Bəyanata Albaniya, Avstriya, Belçika, Bosniya və Herseqovina, Bolqarıstan, Kanada, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlyandiya, Fransa, Yunanıstan, İslandiya, İrlandiya, İtaliya, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta, Çernoqoriya, Niderland, Şimali Makedoniya, Norveç, Polşa, Portuqaliya, Moldova, Rumıniya, Sloveniya, İspaniya, İsçev, İsveçrə, Böyük Britaniya, Ukrayna və Almaniya qoşulub.

## 2024-CÜ İLDƏ GÜRCÜSTANIN ÜMUMİ XARİCİ BORCU 25 MİLYARD DOLLAR TƏŞKİL EDİB



Gürcüstanın ümumi xarici borcu 2024-cü ilin sonunda 25,2 milyard dollar olub, bu da son dörd rübdə ÜDM-in 74,5 faizini təşkil edir. Bu barədə Gürcüstan Milli Bankının saytında məlumat yerləşdirilib.

Məlumatda bildirilir ki, 2024-cü ilin dördüncü rübündə ümumi xarici borc 494,7 milyon dollar, o cümlədən əməliyyat dəyişiklikləri ilə əlaqədar 217,7 milyon dollar, digər dəyişikliklər nəticəsində isə 14,6 milyon dollar artıb, məzənnə dəyişikliyi səbəbindən göstərici 780,7 milyon dollar, qiymət dəyişikliyi səbəbindən isə 18,3 milyon dollar azalıb.

Xarici borcun ümumi həcminin 10,8 milyard dollarını dövlət borcu (ÜDM-in 30,4 faizi) təşkil edir ki, bunun da 8,4 milyard dollarını dövlət öhdəlikləri, 811,6 milyon dollarını Milli Bankın öhdəlikləri, dövlət müəssisələrinin istiqrazlar və kreditlər üzrə borcları isə 1,2 milyard dollar təşkil edir.

Hesabat tarixində bank sektorunun borcu 8,3 milyard dollar, özəl müəssisələrin borcu 5 milyard dollar, şirkətlərarası borcu isə 2,7 milyard dollar təşkil edib.

Xarici valyutada borcun ümumi borcda xüsusi çəkisi 88,6 faiz təşkil edir.

Gürcüstanın xalis borcu 31 dekabr 2024-cü il tarixinə 12,3 milyard dollar (ÜDM-in 36,4 faizi), o cümlədən xalis dövlət borcu 6,4 milyard dollar (ÜDM-in 18,9 faizi) təşkil edib.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.